

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 16 (23.903)

26 yanvar 2022-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib.

Qeyd edilib ki, Vətən müharibəsindən sonra regional əməkdaşlıq üçün çox gözəl imkanlar yaranmışdır. Müharibədən sonra İran-Azərbaycan əlaqələri bu istiqamətdə daha da geniş vüsət almışdır. Dövlətimizin başçısı İran nümayəndə heyətinin azad edilmiş torpaqlarda olan dağıntıları dünən öz gözləri ilə gördüyünü, eyni zamanda Zəngəzur dəhlizinin yaradılması üçün aparılan işlərlə də tanış olduğunu xatırladaraq ümid etdiyini bildirib ki, müharibədən sonrakı dövr bütün region üçün yeni imkanlar açacaq.

Söhbət zamanı ikitərəfli əlaqələrə dair müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

Prezident İlham Əliyev yanvarın 25-də İkinci Dünya müharibəsinin iştirakçısı, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarovanın 100 illiyi münasibətilə ona Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə "İstiqlal" ordenini təqdim edib.



## "Naxçıvan Premium Turniri-2" başa çatıb

*Yanvarın 25-də Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində şahmat üzrə "Naxçıvan Premium Turniri-2"nin mükafatlandırma mərasimi keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədr müavini Emin Hacıyev çıxış edərək turnir haqqında məlumat vermişdir. Bildirilmişdir ki, turnirdə iştirak edən zəka sahibləri öncə rayon və şəhərdaxili keçirilən seçmə yarışlarda mübarizə aparmış və burada iştirak etmək hüququ qazanmışlar. Belə ki, muxtar respublikanın 6 titullu şahmatçısı ilə yanaşı, eyni sayda seçilmiş şahmatçı "Naxçıvan Premium Turniri-2"də iştirak etmişdir. Bu turniri digərlərindən fərqləndirən isə iştirakçıların əmsallarının yüksək olmasıdır. Digər tərəfdən keçirilən bütün görüşlər *chess.nax.az*, *chess24.com* saytlarından canlı yayımlanmışdır. Bütün görüşlər Azərbaycanın qadınlardan ibarət milli komandasının baş məşqçisi Fikrət Sideifzadə tərəfindən şərh olunmuşdur. Naxçıvanda şahmatın inkişafı, kütləvi hal alması muxtar



respublika rəhbərinin adı ilə bağlıdır. Diyarımızın ən ucqar kəndlərində şahmat dərsləri tədris olunur, ən kiçik rayonumuzda belə, şahmat məktəbləri fəaliyyət göstərir. Eyni zamanda 4 idmançımızın adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na daxil edilmişdir. Bu da muxtar respublikada şahmata göstərilən diqqət və qayğının bariz nümunəsidir. Emin Hacıyev Şahmat Federasiyasının məşqçi və idmançıları adından yaradılan şəraitə görə minnətdarlıq etmişdir.



Sonra qaliblərin mükafatlandırılma mərasimi olmuşdur.

Qeyd edək ki, turnirin yekun nəticəsinə əsasən 11 turdan 9 xal toplayan Pərviz Qasımov "Naxçıvan Premium Turniri-2"nin qalibi adını qazanmışdır. 8,5 xal toplayan Urfan Sevdimalıyev ikinci, Toğrul Həsənzadə isə 8 xalla üçüncü pillədə qərarlaşmışlar.

Tədbirin sonunda qaliblər Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən pul mükafatı və diplomla mükafatlandırılmışlar. Mükafatları Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov, gənclər və idman naziri Ramil Hacı təqdim etmişlər.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov turnirdə mübarizə aparan şahmatçıları təbrik etmiş, gələcək karyeralarında uğurlar arzulamışdır.

Sonda şahmatçılar və qonaqlar üçün qala gecəsi təşkil olunmuşdur.

**"Şərq qapısı"**

## Ali təhsil ocaqlarında ilin yekunları müzakirə olunub



Naxçıvan Dövlət Universitetində 2021-ci ilin yekunları və altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında qarşıya qoyulan vəzifələrə dair müşavirə keçirilib. Universitetin rektoru, dosent Elbrus İsayev məruzəsində qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin böyük diqqət və qayğısı nəticəsində ötən ildə də təhsil siyasəti uğurla davam etdirilib, universitetin bütün kampuslarında yenidənqurma və bərpa işləri aparılıb. Xarici dillər fakültəsinin yeni tədris korpusunun istifadəyə verilməsi, Texnologiyalar Parkının təməlatma mərasiminin keçirilməsi ötən ilin ən böyük uğurlarındandır.

Diqqətə çatdırılıb ki, 2021-ci il 3 sentyabr tarixdə "Times Higher Education" (The World University Rankings 2022) dünya universitetləri portalında reytinq sıralamasında dünyanın ən yaxşı universitetləri arasında Naxçıvan Dövlət Universiteti də yer alıb. Həmçinin "Azərbaycan universitetləri" səhifəsinin keçirdiyi "2021-ci ilin ən yaxşı rektoru" sosial tələbə sorğusunda universitetin rektoru Elbrus İsayev "ilin ən yaxşı universitetinin ən yaxşı rektoru" mükafatını qazanıb.

Bildirilib ki, hazırda universitetdə 10 fakültə üzrə bakalavr təhsil səviyyəsinin əyani və qiyabi şöbələrində 70 ixtisas üzrə 6027 tələbə, magistratura təhsil səviyyəsində 88 ixtisaslaşma üzrə 430 magistrant, doktorantura səviyyəsi üzrə 131 doktorant və rezidentura üzrə 70 rezident təhsil alır. 2021-2022-ci tədris ilində ali təhsil ocağının bakalavr və magistr təhsil səviyyələri üzrə müasir dövrün tələblərinə cavab verəcək bir sıra yeni ixtisaslar üzrə tələbə qəbulu aparılıb.

Ali təhsil ocağında mühüm yeniliklərdən biri də Naxçıvan Musiqi Kollecinin 2021-ci il 11 iyun tarixində universitetin nəzdində fəaliyyətə keçməsidir.

Məruzədə tədris prosesində və imtahan semestrlərində İKT-nin tətbiqi sahəsində görülən işlərdən bəhs olunub. Bildirilib ki, ali təhsil ocağının İKT və ET şöbəsi tərəfindən hazırlanan "E-cədvəl" mobil tətbiqi Elm, Təhsil və İnnovasiyalar tətbiqlər və utilitlər nominasiyası üzrə "NETTY 2021" Azərbaycanın milli internet mükafatına layiq görülüb. Vurğulanıb ki, 2021-ci ilin iyul ayında universitetin nümayəndə heyəti ali təhsil ocağında yeni qurulacaq texnopark layihəsində təcrübə əldə etmək məqsədilə Türkiyənin bir sıra universitetlərində, Türkiyə Ali Təhsil Şurasında olub və əməkdaşlıq müqavilələri imzalanıb. Ali təhsil ocağında Avropa Birliyinin Erasmus+ LMQS layihəsi çərçivəsində onlayn görüşlər keçirilib və universitetin nümayəndə heyəti Yunanıstanda keçirilən təlimlərə qatılıblar.

2021-ci ildə universitet əməkdaşlarının 6 monoqrafiyası, 8 dərsliyi, 35 dərs vəsaiti, 94 metodik vəsait və proqramı, 464 elmi məqaləsi və 354 konfrans materialı çap olunub. Elmi məqalələrdən 102-si, konfrans materiallarından isə 196-sı xaricdə beynəlxalq konfrans toplularında dərc olunub. Nüfuzlu jurnallarda nəşrlərə gəldikdə isə müəllimlərin 34 sayda məqaləsi impakt faktorlu jurnallarda işıq üzü görüb. Onlardan 8-i Web of Science məlumat bazasına, 5-i Scopus elmi bazasına daxil olan elmi jurnallarda, 21-i isə sahə indeksli elmi jurnallarda dərc olunub. Universitetin bəzi müəllimləri, hətta beynəlxalq jurnallarda hakimlik edən redaksiya heyətində təmsil olunub. Naxçıvan Dövlət Universitetinin "Enactus" komandası "Waste will be best" layihəsi ilə 19 ali təhsil müəssisəsinin iştirak etdiyi "Enactus Onlayn Sahibkarlıq" müsabiqəsinin qalibi olub. Vurğulanıb ki, 2021-2022-ci tədris ilinin əvvəlində ali təhsil ocağında 1493 əcnəbi tələbə təhsil alır ki, 1486 nəfəri bakalavr, 7 nəfəri magistr təhsil pilləsindədir. Hazırlıq kursunda müxtəlif ixtisaslar üzrə təhsil alan tələbələrin sayı 465 nəfərdir.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.



"Naxçıvan" Universitetində 2021-ci ilin yekunlarına həsr olunmuş müşavirədə universitetin rektoru, dosent Nurlana Əliyeva müşavirəni açaraq bildirib ki, 4 fakültə, 10 kafedra, 7 şöbə, 4 mərkəzin fəaliyyət göstərdiyi universitetdə, ümumilikdə, 1487 tələbə təhsil alır ki, onlardan 22 ixtisas üzrə 1373 nəfəri bakalavr, 10 ixtisas üzrə 30 nəfəri magistr, 14 ixtisas üzrə 31 nəfəri doktorant və dissertant, 6 ixtisas üzrə 12 tələbə isə akademik möhlətdədir. Ali təhsil ocağında ötən il yeni ixtisaslar açılıb, STEAM layihəsi çərçivəsində eyniadlı mərkəz yaradılıb. 2021-ci ildə əməkdaşlar tərəfindən 95 elmi-tədqiqat işi yerinə yetirilib, universitet əməkdaşlarının 1 monoqrafiyası, 2 kitabı, 4 dərs vəsaiti, 58 metodik vəsait və proqramı, 9-u xaricdə, 3-ü indeksli jurnalda olmaqla, 107 elmi məqaləsi və 15-i xaricdə olmaqla, 41 tezisi çap olunub.

Ali təhsil ocağının beynəlxalq əlaqələrindən söz açan rektor vurğulayıb ki, "Naxçıvan" Universiteti dünyanın 52 universiteti ilə tədris və elm sahələrində əlaqə saxlayır və 2 beynəlxalq universitetlər birliyinin üzvüdür. Hesabat ilində daha bir beynəlxalq layihəyə, "Erasmus+" proqramı tərəfindən maliyyələşdirilən Azərbaycan Rektorlar Konfransının yaradılması layihəsinə də qoşulub. "Naxçıvan" Universiteti tərəfdaş seçilərək muxtar respublikadan bu layihəyə qoşulan ilk və yeganə universitet kimi qeydə alınıb. Cari ildə "Erasmus +" proqramı çərçivəsində Rumıniyanın Piteşti Universiteti ilə olan müqavilə, həmçinin İspaniyanın Vallodolid universitetləri ilə də ikili müqavilələr yenilənib.

Hesabat ilində "Naxçıvan" Universiteti 2 beynəlxalq konfransa ev sahibliyi edib və əməkdaşlar 16 beynəlxalq konfransda, 10 respublika konfransında iştirak edib. Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə əlaqədar olaraq ötən il 20 onlayn konfrans, təlim və seminar həyata keçirilib. Ali təhsil ocağının bir əməkdaşı qrant layihənin qalibi olub. 2021-2022-ci tədris ilində "Naxçıvan" Universitetində bütün səviyyələr üzrə 85 əcnəbi tələbə təhsilini davam etdirib.

Sonra çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yekun iclası keçirilib

*Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının "2021-ci ilin yekunları və 2022-ci ildə qarşıda duran vəzifələr" mövzusunda iclası keçirilmişdir.*

Muxtar respublikada idmanın inkişafı istiqamətində aparılan dövlət siyasətinin uğurlarından danışan Güləş Federasiyasının sədri Azər Zeynalov bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə yaradılan idman federasiyaları, eləcə də yeni tikilən və ya əsaslı təmir olunan idman obyektləri idmanın inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir. İdmanın inkişafına göstərilən dövlət qayğısının davamlılığını təmin etmək üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı" təsdiq edilmişdir.



Qeyd olunmuşdur ki, muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarından biri də Güləş Federasiyasıdır. 20 il bundan əvvəl – 2002-ci ildə yaradılan Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası tərəfindən ötən müddət ərzində güləş idman növlərini inkişaf etdirmək, kütləviliyə nail olmaq sahəsində bir sıra işlər görülmüşdür. Federasiyada yunan-Roma, sərbəst güləş, cüdo və sambo idman növləri üzrə bölmələr yaradılmış və bu bölmələrdə, ümumilikdə, 66 qrupda 1247 idmançı güləş idman növləri üzrə məşğələlərdə iştirak edir.

Azər Zeynalov vurğulamışdır ki, 2021-ci ildə federasiya tərəfindən şəhər və rayon birincilikləri təşkil olunmuş, idmançılar 1 muxtar respublika turnirində və 25 şəhər və rayon birinciliklərində, yoldaşlıq görüşlərində iştirak etmiş, yarışların qaliblərinə diplom və hədiyyələr verilmişdir. Bundan əlavə, federasiya idmançılarının şəhər və rayonlarda olan muzeylərə, tarixi abidələrə ekskursiyaları ötən ildə də davam etdirilmişdir.

Sonra çıxış edən Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov 2021-ci ildə görülən işlər və keçirilən yarışlar barədə məlumat vermişdir.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı isə çıxışında vurğulamışdır ki, Ali Məclis Sədrinin rəhbərliyi ilə muxtar respublikada idman və idmançılara dövlət qayğısı ən yüksək səviyyədədir. Naxçıvan idmanının maddi-texniki imkanları sayəsində yeniyetmə və gənclərin bu sahəyə marağı günü-gündən artmaqdadır. Nazirlik idmanın inkişafı və təbliğinə nail olmaq üçün muxtar respublikanın bütün idman federasiyaları ilə qarşılıqlı fəaliyyət göstərir və bu sahədə dövlət siyasətini həyata keçirir. Nazirlik muxtar respublikada 2002-ci ildə yaradılan Güləş Federasiyası ilə birgə idmanın bu sahəsi üzrə kütləviliyin təmin edilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirmişdir.

Sonra gündəlikdə duran məsələlərlə bağlı qərar layihəsi qəbul edilmişdir.

Güləş Federasiyasının sədri Azər Zeynalov 2022-ci ildə görüləcək işlərlə bağlı tapşırıqlar vermişdir. Bildirilmişdir ki, federasiyanın 2022-ci il üçün "Tədbirlər Planı"nda nəzərdə tutulan tədbirlərin icrası vaxtında təmin edilməlidir. İdmançıların ölkə və beynəlxalq yarışlara hazırlıq səviyyəsi artırılmalı, güləşin bütün növləri üzrə yarışların keçirilməsi diqqətdə saxlanılmalıdır. Vətən müharibəsi şəhidlərinin doğum günlərində onların xatirəsinə həsr olunmuş idman tədbirləri keçirilməli, Azərbaycan Respublikasının milli və dövlət bayramları ilə əlaqədar idman tədbirlərinin keçirilməsi və idmançıların vətənpərvərlik ruhunda yetişdirilməsi diqqətdə saxlanılmalıdır. Federasiyanın yaradılmasının 20 illiyi ilə əlaqədar müxtəlif çəki və yaş kateqoriyalarında muxtar respublika birincilikləri, həmçinin şəhər, rayon birincilikləri və muxtar respublika turnirləri keçirilməlidir. Tanınmış məşqçilərin muxtar respublikaya dəvət edilməsi, burada seminar və məşğələlər keçirməsi bu ildə də davam etdirilməlidir. Güləş hakimlərinin yetişdirmə kursları təşkil edilməli, məşqçilərin Olimpiya İdman komplekslərində toplanışları keçirilməlidir. Muxtar respublikada daxili yarışların keçirilməsi təmin edilməli, güləş idman növlərinin şəhər və rayonlarda kütləviliyinə və inkişafına nail olunmalıdır. Naxçıvan Dövlət Universitetində Məşqçilik ixtisası üzrə təhsil alan tələbələrin güləş məşqlərinə, keçirilən idman tədbirlərinə cəlb olunmaları təşkil edilməlidir. Federasiyanın bölmələri fəaliyyətini gücləndirməli, gənclərin bölmələrə cəlbi, eləcə də bölmələrarası güləş yarışlarının keçirilməsi təmin edilməli, rəqabət mühiti formalaşdırılmalıdır. Yarışlarda yüksək nailiyyətlər əldə edən idmançılar həvəsləndirilməlidir. İstedadlı gənclərin məlumat bankının yaradılması və hər yarışdan sonra yenilənməsi təmin edilməlidir.

Çıxışının sonunda Azər Zeynalov muxtar respublikada idmanın, idmançıların hərtərəfli inkişafına göstərdiyi diqqət və qayğıya görə federasiya adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirmiş, Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası üzvlərinə 2022-ci ildə muxtar respublikada güləş idman növlərinin inkişafı məqsədilə qarşıya qoyulan vəzifələrin icrasında uğurlar arzulamışdır.

**"Şərq qapısı"**

# Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələr müəyyənləşdirilib, ötən ilin yekunları müzakirə olunub



***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində keçirilən kollegiya iclasını cəmiyyətin sədri Yəhya Allahverdiyev açaraq məruzə edib.***

Bildirilib ki, 2021-ci il ərzində Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin kollektivi tərəfindən meliorasiya və irriqasiya işlərinin miqyası artırılaraq bütün mövcud imkanlar səfərbər edilib, istismar, təmir və tikinti işləri həyata keçirilib.

Qeyd olunub ki, muxtar respublika ərazisində yerləşən və 303,5 milyon kubmetr su tutumuna malik olan sututarlara 250 milyon kubmetr su ehtiyatı toplanıb. Su istifadəçilərinə mexaniki üsulla və öz axını ilə 247 milyon kubmetr suvarma suyu verilib, bunun müqabilində təkrar suvarma ilə 206 min 455 hektar torpaq sahəsi su ilə təmin olunub. Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi məqsədilə Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 363,4 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılıb. Həmçinin Araz Su Anbarından götürülən su "Qaraçuq-1" və "Azərbaycan" nasos stansiyaları vasitəsilə Böyükdüz kəndi ərazisində yerləşən hovuza vurulur və öz axını ilə müxtəlif diametrli borularla sahələrə verilir. Ərazidə 3,8 kilometr ana xətt və 34,7 kilometr paylayıcı xətt olmaqla, ümumilikdə, 38,5 kilometr boru xətti çəkilib, 323 hidrant və paylayıcı hovuz, 44 siyirtmə, 28 suboşaldıcı quraşdırılıb. Şahbuz rayonunun Külüs, Mahmudoba və Nursu kəndlərinə aid 340 hektar torpaq sahəsində isə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilib, ərazidə 5,2 kilometr ana xətt, 5,8 kilometr paylayıcı xətt olmaqla, ümumilikdə, 11 kilometr boru xətti çəkilib, 52 hidrant və paylayıcı hovuz quraşdırılıb. Bu işlərin davamı olaraq Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində 250 sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılıb. Bundan əlavə, Şərur rayonunda 272, Babək rayonunda 704,5, Sədərək rayonunda 55,5 olmaqla, ümumilikdə, 1032 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınıb.

Diqqətə çatdırılıb ki, muxtar respublikada əhalinin içməli su təminatını yaxşılaşdırmaq üçün 12,1 kilometr yeni içməli su xətti çəkilib, müxtəlif diametrli 45,6 kilometr mövcud xətlərdə təmir-bərpa işləri yerinə yetirilib. suvarma mövsümü ərzində 73,9 kilometr yeni suvarma boru xətti çəkilib və təmirə ehtiyacı olan 24,6 kilometr suvarma boru xətlərində təmir-bərpa işləri aparılıb. İl ərzində həm içməli, həm də suvarma məqsədilə 11 subartezian quyusu tikilərək istifadəyə verilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində keçirilən kollegiya iclasını cəmiyyətin direktoru Mahir Əliyev açaraq bildirib ki, 2021-ci il ərzində dəmir yolu vasitəsilə 119 min 100 nəfər sərnişin daşınmış və daşımadan cəmiyyətin hesabına 39 min 93 manat vəsait daxil olmuşdur. Bununla belə, hesabat dövründə 103 min 282 kiloqram yük-baqaj və poçt-baqaj yükü daşınmış və daşımadan cəmiyyətin hesabına 1564 manat vəsait daxil olmuşdur. Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən ötən il ayrı-ayrı təşkilatların ünvanına 639 vaqon yük daşınmış və yük daşınmasından cəmiyyətin hesabına 61 min manat vəsait daxil olmuşdur. Daşınmış yüklərin 72 vaqon 4 min 320 tonu "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının və Naxçıvan Qarnizonunun Mənzil İstismar Xidmətinin ünvanlarına olmuşdur.

Direktor vurğulayıb ki, Culfa İstismar Vaqon Deposunda ötən il 142 yük və sərnişin vaqonu cari təmir olunmuşdur. Vaqon və lokomotivlərin normal və fasiləsiz istismarının təmin olunması məqsədilə qabaqlayıcı tədbirlər görülərək zəruri ehtiyat hissələri tədarük edilmişdir. Naxçıvan stansiyası ərazisində sərnişin vaqonlarının yuyulması üçün məntəqənin tikintisi başa çatdırılaraq, uzunluğu 50 paqonmetr olan dəmir yolu çəkilmişdir. Yol təsərrüfatında sağlamlaşdırma işlərinin aparılması məqsədilə ötən dövrdə xidməti ərazidə 4579 yararsız ağac şpal təzə ağac şpalla, 492 yararsız ağac şpal yarımyararlı ağac şpalla, 74 yararsız ağac şpal isə yarımyararlı dəmir-beton şpallarla əvəzləşdirilmişdir.

Diqqətə çatdırılıb ki, görülmüş işlərin nəticəsində 2021-ci ildə cəmiyyət üzrə iqtisadi göstəricilərin yerinə yetirilməsi qənaətbəxş olmuşdur. Belə ki, yerlərdə qeyri-standart qaz və elektrik qızdırıcılarından istifadənin qarşısı tamamilə alınmışdır. Bütün növ yanacaqlardan qənaətlə istifadə edilməklə, zəruri olmayan qızdırıcı və işıqlandırıcıların istifadəsinə son qoyulmuşdur. Bu kimi işlər növbəti ildə də davam etdiriləcək.

İclas məruzə ətrafında çıxışlarla davam edib.

* * *

Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində keçirilən iclasda agentliyin direktoru Samiq Sadıxov çıxış edərək bildirib ki, il ərzində muxtar respublikada icbari tibbi sığortadan istifadə edən sığortaolunanların 412 164 müraciəti əsasında178 212 ilkin səhiyyə xidməti, 5 334 təcili tibbi yardım, 592467 ambulator, 352 434 laborator, 26 992 fizioterapevtik tibbi, 32 899 stasionar tibbi, 14 698 sayda cərrahi əməliyyat və 1 092 invaziv radioloji tibbi xidmət olmaqla, ümumillikdə, 1 203 528 sayda tibbi xidmət göstərilib. Səhiyyə müəssisələrində zəruri olan tibbi xidmətlərin göstərilməsi mümkün olmadığı halda isə sığortaolunanlar tibbi xidmətə göndəriş vərəqələri ilə təmin edilirlər. Ötən il ərzində sığortaolunanlar tibb müəssisələri tərəfindən 86 min 440 sayda tibbi xidmətə göndəriş vərəqəsi ilə təmin edilmiş 16 min 102 sayda təkrar göndərişlər də daxil olmaqla, ümumilikdə, 102 min 542 göndərişli vətəndaş yüksəkixtisaslı tibbi xidmətdən istifadə edib.



Vurğulanıb ki, muxtar respublika qeydiyyatlı 463 minə yaxın əhaliyə aid olan məlumatlar şəxslərin iş yeri və gəlirləri, pensiyaçılar, sosial müavinət alanlar, işsiz statusu olanlar, ünvanlı dövlət sosial yardımı alanlar, gəlir vergisi və ya sadələşdirilmiş vergi bəyannaməsi üzrə məlumatlar, əyani təhsil alan tələbələr, tibb müəssisələri üzrə məlumatlar müvafiq icra hakimiyyəti orqanlarına müraciət edilərək toplanılıb, toplanılan məlumatlar əsasında icbari tibbi sığortaya cəlb olunacaq əhali, tibb müəssisələri və tibb işçilərinə dair mərkəzləşdirilmiş məlumat bazası və vahid elektron idarəetmə sisteminin proqram təminatının təkmilləşdirilməsi prosesi davam edib.

Sonda məruzə ətrafında çıxışlar olub.

*Naxçıvan Müəllimlər İnstitutunda keçirilən iclasda institutun rektoru, dosent Azad Novruzov çıxış edərək bildirmişdir ki, hazırda ali təhsil ocağında 1364-ü bakalavr, 82-si isə magistratura səviyyəsində olmaqla, ümumilikdə, 1446 tələbə təhsil alır.*



Ötən dövrdə elmi-pedaqoji kadrların hazırlanması və institutun elmi potensialının möhkəmlənməsi istiqamətində bir sıra nəticələr əldə olunmuşdur. Fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə kadr hazırlığının aparılması davam etdirilmişdir. 2 dissertant fəlsəfə doktoru dissertasiyalarını uğurla müdafiə etmiş, 4 əməkdaş Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən fəlsəfə doktoru, 1 əməkdaşa isə elmlər doktoru elmi dərəcə diplomu verilmişdir.

Diqqətə çatdırılmışdır ki, 2021-ci ildə institut əməkdaşlarının 426 əsəri, o cümlədən 9 monoqrafiya, 1 dərslik, 7 dərs vəsaiti, 59 tədris-metodik vəsaiti və fənn proqramı, 298 elmi və elmi-metodik məqaləsi (dövri elmi jurnallarda və konfrans materiallarında), 52 tezisi çap olunmuşdur. Bunlardan xaricdə dövri elmi jurnallarda 20 elmi məqalə, konfrans materiallarında 36 məqalə və 5 tezis çap olunmuşdur. Bu məqalələrdən 16-sı beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan elmi nəşrlərdə dərc edilmişdir.

Qeyd olunmuşdur ki, 2021-ci ildə yenidənhazırlanma və ixtisasartırma sahəsində tədris-təqvim planına əsasən bir sıra işlər yerinə yetirilmişdir. Elmi-metodik məqalələrlə yanaşı, 2021-ci ildə institut əməkdaşlarının ənənəvi və elektron mətbuatda 250-dən artıq çıxışları olmuşdur.

Vurğulanmışdır ki, tədrisin yeni metodlarla zənginləşdirilməsi və tələbələrin STEAM təlim metoduna yiyələnmələri üçün institutda yeni STEAM kabinəsi yaradılmışdır. Yeni təlim metodunun öyrədilməsi və tətbiqi məqsədilə tədris planlarına seçmə fənn olaraq "STEAM təlim metodunun əsasları və Ardinio metodu ilə Robotların qurulması" və "STEAM təlim metodunun əsasları və informatika fənn kurikulumu" adlı fənlər salınmış və tədrisinə başlanılmışdır.

İnstitutda fəaliyyət göstərən innovasiya laboratoriyasının təşkilatçılığı ilə hesabat dövründə maarifləndirici seminarlar keçirilmiş və tələbələrin yeni layihələrinin təqdimatı olmuşdur.

Sonra institut əməkdaşları məruzə ətrafında çıxış ediblər.

**Xəbərlər şöbəsi**

## Ordubad rayonunda Yeni Azərbaycan Partiyasının gənc fəalları ilə görüş keçirilib

*Yanvarın 24-də Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə Ordubad rayonunda partiyanın gənc fəalları ilə görüş keçirilib.*

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Etibar İsmayılov partiyanın Naxçıvan Muxtar Respublika Təşkilatının VI Konfransının muxtar respublikamızın ictimai-siyasi həyatında mühüm hadisə olduğunu bildirib. Qeyd edilib ki, konfransda təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin proqram xarakterli məruzəsi üzvlər qarşısında yeni vəzifələr müəyyənləşdirir. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının gələcək fəaliyyətində bu vəzifələrin yerinə yetirilməsi xüsusi diqqət mərkəzində olacaq. Etibar İsmayılov gənclərlə bu cür görüşlərin əhəmiyyətindən danışıb.

Yeni Azərbaycan Partiyasının ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olduğunu deyən Milli Məclisin deputatı, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev qeyd edib ki, Ali Məclis Sədrinin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini yeni, müasir tələblərə uyğun olaraq davam etdirir. Bu prosesdə partiyamızın gəncləri də fəal iştirak etməlidir. Ölkəmizdə uğurlu dövlət gənclər siyasətinin həyata keçirildiyini deyən Cəbi Quliyev muxtar respublikada gənclərə göstərilən yüksək dövlət qayğısından danışıb.



Bildirilib ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının yeni Əsasnaməsinə əsasən Gənclər Birliyinin üzvləri, sədri və sədr müavini təşkilat sədrinin təqdimatı əsasında İdarə Heyətinin qərarı ilə təsdiq edilir. Belə ki, Arzu Qasımov təşkilatın Gənclər Birliyinin sədri, Elvin Əliyev sədr müavini təyin olunublar. Eyni zamanda 15 nəfər Gənclər Birliyinin üzvü seçilib.

Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin sədri Arzu Qasımov çıxış edərək qeyd edib ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı üzvlərinin 23594 nəfərini gənclər təşkil edir. Təşkilata üzv olan gənclər müxtəlif sahələrdə çalışır, fəaliyyətləri ilə daim fərqlənirlər.

Arzu Qasımov Gənclər Birliyinin yeni formalaşmış heyəti, fəaliyyət istiqamətləri, o cümlədən həyata keçirəcəyi işlərdən, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının VI Konfransında təşkilatın sədri tərəfindən Gənclər Birliyinin qarşısında qoyulan hədəflərdən danışaraq bildirib ki, tapşırıqlara əsasən Gənclər Birliyi gənclərlə işi və onların sağlam vətəndaş kimi formalaşmasını, ulu öndərin siyasi xəttinə sədaqət ruhunda tərbiyəsini diqqətdə saxlamalı, bu istiqamətdə sistemli və nəticəli tədbirlər həyata keçirilməlidir. Partiya sıralarına yeni üzvlərin qəbulu zamanı sağlam təfəkkürlü, dövlətçiliyə bağlı və vətənpərvər gənclərə üstünlük verilməlidir.

Arzu Qasımov göstərilən yüksək etimada, gəncliyin inkişafı sahəsində həyata keçirilən tədbirlərə görə Naxçıvan Muxtar Respublikasının gəncləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Görüşdə Gənclər Birliyinin üzvü, Ali Məclisin deputatı Aidə Cəlilzadə, Gənclər Birliyi sədrinin müavini Elvin Əliyev və birliyin üzvü Dilarə Baxşəliyevanın mövzu ətrafında fikirləri dinlənilib, gəncləri maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

***Azərbaycan Respublikasının Əməkdar jurnalisti, "Tərəqqi" medalı təltifçisi, "Qızıl qələm" mükafatı laureatı, Jurnalistlər Birliyinin üzvü, 2 mindən artıq analitik məqalənin, ictimai-siyasi mövzulu araşdırmaların müəllifi, 30-dan artıq kitabın redaktoru, tərtibçisi, "Azərbaycan" qəzetinin Baş redaktorunun müavini İxtiyar Hüseynli və qəzetin Parlament və siyasət şöbəsinin redaktoru Rəşad Cəfərli ötən günlərdə Naxçıvana səfər ediblər. Burada olarkən 100 yaşlı qəzetimizin və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin də qonağı olublar. Biz də bu fürsəti dəyərləndirib, İxtiyar müəllimlə Naxçıvanla bağlı təəssüratlarını öyrəndik.***

## İxtiyar Hüseynli: "Naxçıvanda lider mövqedə olmayan bir sahə yoxdur"

***– Xoş gəlmisiniz. Əvvəlcə istərdim ki, doğma diyarımızla bağlı təəssüratlarınızı bölüşəsiniz. Ümumiyyətlə, Bakıdan gəlmiş bir jurnalist olaraq mərkəzi mətbuatın təmsilçisi kimi Naxçıvanda gedən prosesləri necə dəyərləndirirsiniz?***

– Azərbaycan ta qədim dövrlərdən bu günədək minilliklərin süzgəcindən keçib. Keçmişə nəzər salanda aydın görürük ki, Naxçıvanın Azərbaycan tarixində mühüm töhfələri olub. Mən tarixi faktları sadalamayacağam, sadəcə, ən yeni tariximizin – müstəqillik dövrümüzün tarixinə nəzər salmaq istərdim. 90-cı illərdə Azərbaycanda başlayan milli azadlıq hərəkatının, ondan bir neçə il sonra dövlət quruculuq prosesinin başlanğıcı məhz Naxçıvanda olub. Uzun illər Azərbaycanda kortəbii şəkildə gedən milli azadlıq hərəkatı dünyanın ən böyük azərbaycanlısı, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvana gəlişindən sonra düzgün məcraya yönəldi. Dahi öndər xalqın maraqlarını, mənafeyini ifadə etdi. Görkəmli dövlət xadimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi həyata keçirdiyi islahatlar, onun müəllifi olduğu işlər Azərbaycanın dövlət quruculuğu prosesində ilklərə çevrildi. Biz bu gün əminliklə deyirik ki, Naxçıvanda dahi şəxsiyyət tərəfindən əsası qoyulmuş məqsədyönlü siyasi islahatlar da





məhz ulu öndərin siyasi dəstxəti, fədakarlığı ilə uğurla davam etdirilir. Mən bunu mərkəzi mətbuatın təmsilçisi olaraq aydın görürəm. Naxçıvanda gedən prosesləri bir cümlə ilə ümumiləşdirmək olar. Bu cümlənin müəllifi Azərbaycan Prezidenti cənab İlham Əliyevdir: ***"Naxçıvan Muxtar Respublikası inkişafa görə Azərbaycanda lider mövqedədir".*** Bu, Naxçıvanda gedən proseslərin, görülən işlərin məcmusudur. Azərbaycanın gözbəbəyi olan Naxçıvanı bu çətin şəraitdə qorumaq, saxlamaq, inkişaf etdirmək muxtar respublika rəhbərinin uğurlu siyasi fəaliyyətinin nəticəsi, hər bir naxçıvanlının fədakarlığına, vətənpərvərliyinə verilən qiymətdir.

***– Naxçıvana budəfəki gəlişinizin məqsədi barədə öyrənmək istərdik.***

– Səfərimizin məqsədi bu inkişafın əyani göstəriciləri ilə tanış olmaqdır. Biri var rəqəmlər, statistika, biri də real göstəricilər. Belə bir fikir var ki, hər cür müqayisə qüsurludur. Lakin həqiqət müqayisədə üzə çıxır. Mən Naxçıvana dəfələrlə səfər etmişəm. Hər səfərimdə buradakı inkişaf proseslərini gördükdə, yaxşı mənada, heyrətlənmişəm. Bugünkü Naxçıvan dünənki Naxçıvan deyil. Hər gün yenilənir, inkişaf edir, çiçəklənir. Artıq 4 gündür ki, həmkarım Rəşad Cəfərli ilə birgə Naxçıvandayıq və bütün növ infrastrukturla tanış olmuşuq. Kənd-kənd gəzmişik, dağ kəndlərində olmuşuq, sərhəd kəndlərində olmuşuq. Kiçik bir dağ kəndində gördüyümüz mənzərə, quruculuq, inkişaf, əhalinin çöhrəsində hiss etdiyimiz razılıq, məmnunluq heyranlıq doğurur. Təsəvvür edin ki, ən ucqar dağ kəndində yaradılan şərait bir çox şəhərlərdə yoxdur. Bunu pafosla demirəm, bu fikirləri bir vətəndaşın mövqeyi kimi qəbul edin. Buna çox sevinirik, bunu yaradan insanlara bir azərbaycanlı olaraq minnətdarlığımızı bildiririk. Bu gün bu sərhəd kəndlərinin timsalında yaradılan şərait, çiçəklənmə, inkişaf təkcə Naxçıvan üçün deyil, bütün Azərbaycan üçündür. Azərbaycanın qərb bölgəsindən uzaq düşmüş Naxçıvan bu gərginlik, bu narahatçılıq içərisində gündən-günə inkişaf edirsə, bu, bütün Azərbaycan miqyasında ən mühüm amildir.

***– Naxçıvanda sizi heyran edən məqamlar...***

– Diqqətimi çəkən bir məqamı deyim. Ucqar dağ kəndlərinə avtomobillə qalxırdıq. Yolboyu, ən hündür yüksəkliyədək bizi sarı borular müşayiət edir. Baxın, elə o sarı borular Naxçıvandakı abadlığın, inkişafın ən mühüm rəmzlərindən biridir. Rəsmi faktlara nəzər saldıqda görərik ki, Naxçıvan artıq enerji ixrac edir. Naxçıvanda ən ucqar kəndin mavi yanacaqla, daimi enerji ilə təmin olunması ən böyük uğur göstəriciləridir. Bəzən insanlar bu inkişaf prosesinin ilk dövründən etibarən bu irəliləyişin içərisində olur deyə, o qədər də mahiyyətinə vara bilmir. Siz bu illəri həyatınızda yaşamışsınız və bu olanlar sizin üçün reallaşıb. Ancaq dediyim kimi, həqiqət müqayisə zamanı üzə çıxır. 30 il öncəki Naxçıvanı bugünkü Naxçıvanla müqayisədə düşünün, nə qədər yeniliklər var. Biz bunu aydın şəkildə görürük. Və onu xüsusilə vurğulamaq istərdim ki, Azərbaycan Cənubi Qafqazda liderdirsə, Naxçıvan da Azərbaycanda liderdir. Çünki Naxçıvan inkişaf göstəricilərinə görə Azərbaycanın ən mühüm bölgəsidir. İnanıram ki, Naxçıvanın inkişafı davamlı, dayanıqlı olacaq və bir vətəndaş kimi bizi hər zaman sevindirəcək.

***– Bir jurnalist kimi muxtar respublikada mətbuatın inkişaf səviyyəsi, xüsusilə də bu yaxınlarda yubileyini qeyd etdiyimiz doğma qəzetimiz "Şərq qapısı" haqqında təəssüratlarınızı da bilmək istəyərdik.***

– Gəldiyimiz gündən bəri bizi "Təbriz" mehmanxanasında yüksək səviyyədə qonaqladılar. Orada pəncərədən baxarkən gözoxşayan binaların nə üçün fəaliyyət göstərdiyini bələdçidən mütəmadi soruşurduq. Bu binanı soruşduqda dedilər ki, bura "Şərq qapısı" qəzeti və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin fəaliyyət göstərdiyi binadır. Bu qəzetin redaksiyasında 15 il əvvəl olmuşdum. Binanın "Şərq qapısı"na aid olduğunu eşidəndə və qarşımda belə möhtəşəm bir binanı görəndə heyrətə gəldim. Qərara aldım ki, burada fəaliyyət göstərən əməkdaşlarla tanış olum. Bu tanışlıqdan böyük məmnunluq duydum. Buradakı infrastruktur məni daha da heyrətləndirdi. Sözün açığı, burada yaradılan unikal şərait məndə qibtə doğurdu. Düşünürəm ki, mərkəzi mətbuatda çalışan həmkarlarım da buradakı şəraiti görsəydilər, əminəm ki, sizə qibtə edərdilər. Bu, yaradıcı heyətin əməyinə dövlət tərəfindən verilən böyük qiymətdir, böyük dəyərdir.

Biz əvvəlcə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin fəaliyyəti ilə tanış olduq. Birliyin direktoru oradakı avadanlıqlar barədə məlumat verdi. Nəşriyyat ən son model texnika ilə təchiz olunub. Burada yaradılan müasir poliqrafiya, çap olunan nəşrlər təqdirəlayiqdir. Qəzet redaksiyasında olarkən qəzetin baş redaktoru muxtar respublikada mətbuat sahəsində görülən işlər barədə danışdı. Öyrəndik ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamı muxtar respublika mətbuatını yeni inkişaf müstəvisinə çıxarıb. Bu gün muxtar respublikanın paytaxtının və hər bir rayonun özünün yüksək poliqrafik keyfiyyətlə çap olunan, dövriliyi təmin edilən və müasir iş şəraiti yaradılan mətbuat orqanı vardır. Bu, mətbuat sahəsinə göstərilən qayğıdan xəbər verir. Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsin yaradılması muxtar respublikada jurnalistlərin əməyinə verilən böyük dəyərin göstəricisidir. Yaradılan şərait Naxçıvanda mətbuatın hərtərəfli inkişafında özünü təcəssüm etdirir. Biz bunu görürük və fərəh hissi keçiririk.

Onu da qeyd edim ki, ötən il Naxçıvanda əlamətdar hadisələrdən biri də "Şərq qapısı" qəzetinin 100 illik yubileyi idi. Bu yubiley həm də Azərbaycan miqyasında geniş qeyd olundu. Azərbaycanın rəsmi qəzeti – "Azərbaycan" qəzetinin səhifələrində də qəzetlə bağlı geniş məqalələr dərc edildi. Bu bir faktdır ki, mətbuat ənənələrinin formalaşması, düzgün məcrada inkişafında naxçıvanlı ustadların müstəsna, əlahiddə xidmətləri, töhfələri olub. Onları yetişdirən məhz "Şərq qapısı" qəzetidir. Bu qəzetin Azərbaycan mətbuatında özünəməxsus mövqeyi var. Bu ənənələri bu gün Naxçıvan miqyasında "Şərq qapısı" qəzeti Şərqin qapısı qəzeti olaraq hər zaman daşıyıb və bu gün də daşıyır. "Şərq qapısı" qəzeti təkcə Azərbaycanın mətbuat tarixinin yox, ümumiyyətlə, Azərbaycan tarixinin ayrılmaz hissəsidir. Bu gün biz Azərbaycanın bütün bölgələrindəki muzeylərə nəzər salsaq, orada "Şərq qapısı" qəzetinin fotonüsxələrinə rast gələrik. Orada nələr əks olunub? Bir az əvvəl söylədiyim kimi, milli azadlıq hərəkatı və dövlət quruculuğu prosesləri ilə bağlı əbədiyaşar liderimizin imzaladığı sərəncamlar, qərarlar, görüşlər yaşayan bir tarix "Şərq qapısı" qəzetində əbədiləşdirilib. Dönüb tarixə nəzər saldıqda, faktların məhz bu qəzetdən istinad kimi götürüldüyünün şahidi oluruq. Bu tarixi əhəmiyyətliliyi "Şərq qapısı" bu gün də uğurla davam etdirir. Bu gün biz qəzeti elektron şəkildə internetdən izləyə bilirik. Qiyabi şəkildə müəlliflərin hər birini tanıyırıq, qəzetin baş redaktoru ilə müntəzəm əlaqə saxlayırıq, onun ictimai-siyasi xarakterli aktual məqalələri "Azərbaycan" qəzetində də dərc olunur. Müasir mətbuatın yaradıcı trendləri, informasiya resursları, yeniliklər barədə fikir mübadiləsi aparırıq. Bir məqamı da qeyd etmək istərdim ki, qəzetdə bu gün dərc olunan məqalələr onilliklər, hətta deyərdim, yüzilliklər sonra Naxçıvanın tarixi araşdırılarkən vərəqlənəcək. Çünki bu qəzet tarixi öyrənmək, araşdırmaq üçün mühüm salnamədir. Qəzetdə gənc jurnalistlərin yetişdirilməsi də, xüsusilə diqqətimi cəlb etdi. Gəlişimizin 3-cü günü Naxçıvan Dövlət Universitetində olduq. Universitetin Media Mərkəzində olarkən Jurnalistika fakültəsində oxuyan tələbələrlə görüşdük. Jurnalist kadrların hazırlanması, onların işə cəlb olunması da mətbuatın inkişafında mühüm amildir. Burada təhsil alan tələbələrin gənc jurnalist kimi yetişməsi üçün hər cür şərait var. Onlar nəzəri biliklərlə yanaşı, ilkin peşə vərdişlərinə



də yiyələnir, ixtisaslı kadr kimi Naxçıvan mətbuatına öz töhfələrini verirlər. Mənim üçün sevindirici haldır ki, tələbələrin "Şərq qapısı" qəzetində yazıları dərc olunur və bu tələbə-jurnalistlər üçün çox mühüm əhəmiyyət daşıyır. Hesab edirəm ki, Naxçıvan mühitində "Şərq qapısı" qəzeti təkcə tələbə-jurnalistlər üçün deyil, bütün elm adamları üçün məbəd rolunu oynayır.

Jurnalist əməyi ilə bağlı ən mükəmməl mövqeyin sahibi olan ulu öndərimiz Heydər Əliyev deyirdi: ***"Jurnalist əməyi qeyri-adi əməkdir".*** Naxçıvanda qeyri-adi əməyə qeyri-adi himayədarlıqla yanaşılır. O qayğının nəticəsi "Şərq qapısı"nın, elə digər muxtar respublika qəzetlərinin də yaradıcı heyətinin məhsuldar fəaliyyətidir. Qarşılıqlı mənəvi öhdəliklər var. Bunlar heç biri hüquqi öhdəliklər deyil. Bu binada jurnalistlər üçün yaradılan şərait, kompüterləşmə, ən müasir avadanlıqlardan istifadə olunması məni çox heyrətləndirir. Jurnalist həmkarım Rəşad müəllimlə birgə buradakı mənzərəni görəndə bir daha şahidi olduq ki, Naxçıvanda lider mövqedə olmayan bir sahə yoxdur. Bunu çox yüksək qiymətləndiririk. İstər təhsil, istər səhiyyə, ümumiyyətlə, bütün sahələrdə, hərbi infrastrukturda da bunun şahidi olduq. Ucqar dağ kəndində yerləşən postdakı əsgərin üzündəki qürur, cəsurluq və məmnunluq ən böyük uğur, ən böyük nailiyyətdir. Sevinirik, fəxr edirik, qürur duyuruq ki, bu gün Naxçıvan çiçəklənən dövrünü yaşayır, yaşayacaq da. Bu diyardan aldığımız zəngin, tükənməz təəssüratı, heç şübhəsiz ki, qısa zamanda qəzetimizin ölkəmizin ən müxtəlif bölgələrindən olan çoxsaylı oxucuları ilə də bölüşəcəyik.

***– Maraqlı müsahibə üçün minnətdarlığımı bildirirəm. Sağ olun.***

✍ **Gülcamal TAHİROVA**

## Muxtar respublikada dövlət icbari şəxsi sığortasını cari ildən Dövlət Sosial Müdafiə Fondu həyata keçirir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2021-ci il 24 may tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının, hakimlərin, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında yerləşən ordu, hissə və birləşmələrinin, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat orqanlarının şəxsi heyətinin, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularının, habelə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) hərbi xidmətdə olan şəxslərin və toplanışlarda olan hərbi vəzifəlilərin, prokurorların, müstəntiqlərin, ədliyyə, miqrasiya orqanlarında qulluq keçən, təhqiqat aparan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən, fövqəladə halların nəticələrinin aradan qaldırılmasını, ictimai qaydanın mühafizəsini təmin edən, gömrük işini təşkil edən şəxslərin və mülki müdafiə qüvvələrinin şəxsi heyətinin həyat və sağlamlığının dövlət icbari şəxsi sığortası sahəsində səlahiyyətlər 2022-ci il yanvarın 1-dən Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fonduna həvalə edilmişdir.

Cari ildən başlayaraq dövlət icbari şəxsi sığortası sahəsində sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların uçotunun aparılması, sığortalı tərəfindən sığorta haqlarının sığortaçıya ödənilməsinə nəzarət, sığorta ödənişlərinin dövlət icbari şəxsi sığortası sahəsində qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə verilməsi, sığorta ehtiyatlarının yaradılması, habelə dövlət icbari şəxsi sığortası sahəsində digər işlərin görülməsi Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən həyata keçirilir.

Qeyd edək ki, dövlət icbari şəxsi sığortası sığortaolunanların həyat və sağlamlığının qanunvericilikdə nəzərdə tutulmuş qaydada icbari formada sığorta olunmasına yönəldilmiş münasibətlər sistemidir. Sığortaolunanlara dövlət icbari şəxsi sığortası hər il dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Deputatlar, həmçinin məhkəmə və hüquq-mühafizə orqanlarının əməkdaşları 5 illik əməkhaqqı miqdarında sığorta olunur. Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası isə 11 min manat məbləğində həyata keçirilir.

Sığortaolunanların qanunvericilikdə göstərilən səbəblərdən həlak olması (vəfat etməsi), xəsarət alması (yaralanma, travma, kontuziya) və sağlamlıq imkanları məhdudluğun müəyyən edilməsi sığorta hadisələri hesab edilir. Sığorta hadisəsi baş verdikdə sığortaolunana sığorta məbləğinin faizi hesabı ilə sığorta ödənişi verilir. Belə ki, deputatlara fərdi qəza zamanı, məhkəmə və hüquq-mühafizə orqanlarının əməkdaşlarına xidmətdə olduğu zaman, hərbi qulluqçulara isə həqiqi hərbi xidmətdə olduğu zaman həlak olduqda, yaxud alınmış xəsarət və ya xəstəliklə əlaqədar üç il müddətində vəfat etdikdə 100 faiz, I dərəcə sağlamlıq imkanları məhdudluğu yarandıqda 80 faiz, II dərəcə sağlamlıq imkanları məhdudluğu yarandıqda 60 faiz, III dərəcə sağlamlıq imkanları məhdudluğu yarandıqda isə 40 faiz həcmində sığorta ödənişi verilir. Həmçinin sığortaolunana aldığı xəsarət növlərinə uyğun olaraq qanunvericilikdə müəyyən olunmuş faiz miqdarında sığorta ödənişi verilir.

Sığortaolunanın sığorta hadisəsi ilə birbaşa bağlı olan qəsdən cinayət törətdiyi barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda, qanunvericilikdə nəzərdə tutulmuş qaydaya uyğun olaraq sığorta ödənişinin alınması üçün tələb olunan sənədləri və məlumatları təqdim etmədikdə, yaxud təqdim edilmiş sənədlərin və məlumatların tam və ya düzgün olmadığı müəyyən edildikdə, sığorta hadisəsi sığortalının alkoqollu, narkotik və ya toksiki maddələrdən istifadə etməsi nəticəsində baş verdikdə, sığortaolunan özünə qəsd etdikdə və həmin hal məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq olunduqda sığortaolunana və ya onun vərəsələrinə sığorta ödənişinin verilməsindən imtina edilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu dövlət icbari şəxsi sığortası sahəsində öz üzərinə düşən vəzifələri yerinə yetirəcək, aidiyyəti şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində müvafiq işləri həyata keçirəcəkdir.

## Ötən ay 164 nəfərə əmək pensiyası təyin edilib

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu ötən ilin dekabr ayı ərzində nəzərdə tutulmuş tapşırıqları yerinə yetirib. Fond pensiya və müavinətlərin qanunvericilikdə nəzərdə tutulan qaydada təyinatını və vaxtından əvvəl ödənilməsini, həmçinin fərdi uçot sahəsində işlərin icrasını təmin etmək üçün müvafiq tədbirlər görüb. Əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına ödəmələrin vaxtından əvvəl maliyyələşdirilməsi təmin edilib və pensiya ödənilməsinə 14 milyon 934 min manat, məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin ödənilməsinə isə 330 min manat vəsait xərclənib. Təyin olunan əmək pensiyalarının və müavinətlərin ödənişi plastik kartlar və poçt bölmələri vasitəsilə həyata keçirilib.

Müvafiq dövr ərzində "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranan 164 vətəndaşa əmək pensiyası təyin olunub. Bunlardan 92-si yaşa, 33-ü sağlamlıq imkanlarının məhdudluğuna, 39-u isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxan vətəndaşlar olub. Həmçinin fərdi uçot sistemi sahəsində də işlər davam etdirilib, 286 yeni əmək fəaliyyətinə başlayan sığortaolunana fərdi şəxsi hesab açılıb.

Hesabat ayında müvafiq orqan tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə fondun xəzinə hesabına 12 milyon 965 min 500 manat vəsait daxil olub ki, bu da proqnoz üzrə nəzərdə tutulmuş vəsaitdən 20,9 faiz çoxdur. Ümumilikdə, pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitin 84,9 faizi məcburi dövlət sosial sığortahaqqı şəklində muxtar respublikada yığılıb. Müvafiq dövrdə 4 hüquqi və 153 fiziki şəxs məcburi dövlət sosial sığortaödəyicisi kimi uçota alınıb.

29 dekabr 2021-ci il tarixdə ölkə başçısı tərəfindən imzalanmış "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa əsasən əmək pensiyasının minimum məbləği artırılaraq 240 manat məbləğində müəyyən olunub və ümumilikdə, 2115 əmək pensiyaçısına şamil edilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Fənn olimpiadasının şəhər və rayon mərhələsi olub



IX-XI sinif şagirdləri arasında məktəblilərin respublika fənn olimpiadasının şəhər və rayon mərhələsi keçirilmişdir. 657 şagirdin iştirak etdiyi bu bilik yarışında şagirdlər Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, informatika, tarix və coğrafiya olmaqla, 8 fənn üzrə öz bilik və bacarıqlarını nümayiş etdirmişlər. Şagirdlərə hər fənn üzrə fənn kurikulumuna uyğun olaraq qapalı test formasında hazırlanmış 25 sual təqdim olunmuşdur. Ən yüksək nəticə göstərən şagirdlər olimpiadanın ikinci mərhələsinə vəsiqə qazanacaqdır.

Qeyd edək ki, ötən il keçirilən respublika fənn olimpiadasında muxtar respublika şagirdlərindən 5-i I, 13-ü II, 8-i III yer olmaqla, 26-sı qalib çıxmışdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Federasiya ötən ilə uğurla yekun vurub

Ötən ilin yaddaqalan və uğurlu olduğunu deyən Naxçıvan Kikboksinq Federasiyasının sədri Xəyal Abdullayev bildirib ki, idmançılar təkcə kikboksinqdə deyil, digər döyüş idmanı növləri – universal döyüş, pankration, qrepplinq, MMA və digər növlərdə nəticələr əldə ediblər. İdmançılar arasında ölkə, beynəlxalq və dünya səviyyəli yarışların qalib və mükafatçıları var və bu amil gələcəyə nikbin baxmağa əsas verir. Ötən il idmançıların ölkə və dünya səviyyəli yarışlarda iştirakı təmin edilib, federasiya idmançıları respublika miqyaslı birinciliklərdə 21, dünya çempionatlarında 9 medal olmaqla, ümumilikdə, 30 müxtəlif əyarlı medal qazanıblar. Qazanılan fərdi uğurlarla yanaşı, müasir fəaliyyət mexanizminə nail olmaq üçün xaricdə fəaliyyət göstərən idman təşkilatları ilə əməkdaşlıq əlaqələri qurulur, onların təşkilatçılıq təcrübəsinin muxtar respublikada tətbiqi və idmançılarımızın peşəkar arenalarda iştirakı ilə bağlı işlər görülür.



Federasiya sədri çıxışının sonunda yaradılan imkanlara görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Muxtar respublikamızda idman və idmançılara dövlət qayğısının ən yüksək səviyyədə olduğunu deyən gənclər və idman naziri Ramil Hacı bildirib ki, 2018-ci ildə yaradılan Kikboksinq Federasiyası ötən il də öz işini verilmiş tapşırıqlara əsasən qurub. Qeyd olunub ki, muxtar respublikada uğurla icra olunan dövlət idman siyasəti nəticəsində yaranan davamlı inkişaf tempi, qazanılan uğur və nailiyyətlərə baxmayaraq, qarşımızda mühüm vəzifələr dayanır. İdman federasiyaları və aidiyyəti qurumlarla birgə "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində işlərin davam etdirilməli olduğunu vurğulayan Ramil Hacı dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulan tələb və tapşırıqları diqqətə çatdırıb. Nazir çıxışının sonunda qarşılıqlı əməkdaşlıq və fəaliyyət nəticəsində yeni nailiyyətlərin əldə olunacağına inamını ifadə edib.

Federasiya nümayəndəsi Ramal Yaqubov ötən il ərzində keçirilən tədbirlər haqqında hesabat xarakterli məlumatı diqqətə çatdırıb.

Sonra gündəlikdə duran məsələlərlə bağlı qərar layihəsi təsdiq olunub. İclasda məşqçilərin fikir və təklifləri dinlənilib, bölmələrin fəaliyyəti, mövcud çatışmazlıqlar və gələcək istiqamətlər müzakirə olunub, aidiyyəti üzrə tapşırıqlar verilib, 2021-ci ildə uğurlu nəticələr əldə edən idmançılar diplom və hədiyyələrlə mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

## *"Naxçıvanda mənəvi dəyərlərə qayğı"* mövzusunda tədbir



*Dünən Milli Dəyərlər Muzeyinin ekspozisiya zalında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı ilə "Naxçıvanda mənəvi dəyərlərə qayğı" mövzusunda tədbir təşkil edilib.*

Tədbiri giriş sözü ilə mərkəzin elmi katibi Nihad Tarverdiyev açaraq qeyd edib ki, Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri sayılan Naxçıvanda bu gün də milli-mənəvi dəyərlərimiz qorunur və yaşadılır. Bu, muxtar respublikada digər sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı istiqamətində ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi yolun uğurla davam etdirilməsinin nəticəsidir. Bu sahədə aparılan məqsədyönlü siyasət milli-mənəvi dəyərlərimizin dünyada təbliğinə və tanıdılmasına xidmət edir.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Qadir Əkbərov, Milli Dəyərlər Muzeyinin baş fond mühafizi Telman İbrahimov və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşı Ruzi Süleymanov çıxış ediblər.

Sonra Milli Dəyərlər Muzeyinin ekspozisiyasına baxış olub.

**Xəbərlər şöbəsi**

## Naxçıvan karateçiləri beynəlxalq turnirdə 17 medal qazanıb



Bakı şəhərində Azərbaycan Milli Karate Federasiyası və "Arpaçay" Karate Klubunun birgə təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş VI "Arpaçay Open" beynəlxalq turniri keçirilib. Ənənəvi yarışda Azərbaycan, Rusiya və Ukraynadan, ümumilikdə, 570 idmançı 31 klubu təmsil edib. Yarışda Naxçıvan Karate-do Federasiyasının idmançıları geniş tərkibli heyətlə mübarizə aparıblar. 15 karateçimiz uğurlu çıxışı ilə adını mükafatçılar sırasına yazdırıb.

Kumite növündə 16-17 yaş qrupunda mübarizə aparan Rəşid Süleymanov -68 kiloqram çəki dərəcəsində qalib, -70 kiloqram çəki dərəcəsində isə ikinci olub. Aslan İsmayılov (18-20 yaş, 84+ kiloqram), Rəşad Qasımov (18-20 yaş, -67), Fatimə Bədəlova (16-17 yaş, +59) və Fatimə Bağırzadə (6-7 yaş, -25 kiloqram və +25 kiloqram) öz yaş və çəki kateqoriyaları üzrə gümüş medala layiq görülüblər. Vüsal Seyidov (18-20 yaş, -61), İmran Həsənov (18-20 yaş, -60), Aminə Novruzzadə (12-13 yaş, +47), Kənan Qənbərov (8-9 yaş, +40 kiloqram), Əli Əzizov (6-7 yaş, +25 kiloqram) və Həmidə Əzizova (6-7 yaş, -25 kiloqram) bürünc medala sahib çıxıblar.



Kata növündə isə Məhəmməd Bağırov (14-15 yaş), Canər Abbaszadə (12-13 yaş) və Elgün Zeynalov (12-13 yaş) yarışı üçüncü sırada tamamlayıblar.

Bu nəticələrlə Naxçıvan karateçiləri yarışda 2 qızıl, 6 gümüş və 9 bürünc medal olmaqla, ümumilikdə, 17 medal qazanıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***Bildiriş***

"Reges İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin adı dəyişdirilərək "Reges İnşaat & Consulting Company" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

***İtmişdir***

Hümbətəliyev Altay Şəfaq oğlunun adına olan hərbi bilet itdiyindən etibarsız sayılır.

***

Babək rayon Kalbaurudizə kəndində yaşamış Babayev Əli Məhəmməd oğlunun adına olan JN-65[th] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 73